# 2014-CÜ İL ÜÇÜN 3-CÜ "ŞUŞA QRANTI" MÜSABİQƏSİ (EİF/MQM/Şuşa-3-2014-7(22)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ NƏŞRLƏR VƏ ELMİ NƏTİCƏ

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Heç təsadüfi deyildir ki, vaxtilə lokal xarakterli "erməni məsələsi" beynəlxalq rəqabətdə maraqları toqquşan böyük dövlətlərin təhrikləri nəticəsində ortaya çıxaraq qlobal bir problemə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, erməni dövlətinin Cənubi Qafqazda qurulması məsələsi böyük güclərin geosiyasi planlarının nəticəsi olsa da, onu türk sivilizasiyasına qarşı bir təhdid olaraq da dəyərləndirmək mümkündür. Xüsusilə türk dünyası arasındakı əlaqələri təmin edən "türk qapısı" Naxçıvanın bu dövlətlər tərəfindən ermənilərə verilməsi cəhdlərinə də məhz bu aspektdə baxılmalıdır. Böyük dövlətləri əsl həqiqətdə heç də ermənilərin taleyi maraqlandırmamış, bu məsələdən yalnız bu bölgədə o dövrdən üzü bəri dəyişməyən geosiyasi, geoiqtisadi maraqları naminə istifadə etmişlər.

Tədqiqat işinin dəyərini artıran ən vacib məqamlardan biri tarixi reallıqların öz obyektiv mahiyyətini qoruması baxımından Böyük Britaniyanın Milli Arxivlərində yer alan sənədlərdən istifadə edilməsidir. İngiltərə arxivləri ermənilərin törətdikləri cinayətlərlə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni faktorunun böyük güclər, xüsusilə də İngiltərə üçün əhəmiyyətini göstərən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur. Həqiqətən də Böyük Britaniya arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv meyarlar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Çünki Qərb dünyasında ermənilər və onların havadarları istər Azərbaycan, istərsə də Türkiyədəki materialların obyektiv deyil, tərəfli olduğu yönündə təbliğat aparırlar. Əlbəttə, Azərbaycan və Türkiyə arxivlərində yer alan materiallar tarixi həqiqətlərin ortaya çıxmasında böyük önəmə sahibdir, lakin obyektiv dəyərini qoruması baxımından məsələnin başlıca olaraq Böyük Britaniyanın arxiv materialları əsasında tədqiq edilməsinin daha faydalı olacağı qənaətindəyik. Ermənilər tərəfindən törədilən cinayətlərin Azərbaycan və Türkiyə arxivlərində yer alan sənədlər əsasında isbatının Qərb ictimaiyyətində o qədər də inandırıcı olmadığını nəzərə alaraq və ya belə düşünərək, reallıqların məhz İngiltərə arxivlərindəki sənədlərə söykənərək aşkara çıxarılması qarşıya qoyulmuşdur. Bu materiallar türklərə qarşı XX əsrin əvvəllərində ermənilərdən baryer olaraq istifadə edildiyini, "erməni məsələsi"nin Böyük Güclərin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə maliyyələşdirilən və hərbi baxımdan silahlandırılan erməni dəstələrinin 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritdiklərini sübut edir. Düşünürük ki, erməni iddialarına tutarlı şəkildə cavab vermənin, əsas olaraq da dünya ictimaiyyətinə həqiqətləri çatdırmağın yolu digər materiallarla birlikdə, Böyük Britaniyadakı arxiv sənədlərinə də müraciət etməkdən keçir.

Arxiv materialları ilə yanaşı rus, ingilis, türk, erməni alimlərinin və rəsmi nümayəndələrin tarixi sənəd mahiyyətindəki əsərlərinə də geniş yer verilmişdir. Hesab edirik ki, əldə edilən materialların təhlili Böyük Güclərin erməni məsələsi ilə bağlı siyasətinin müəyyən cəhətlərini yenidən gözdən keçirməyə, eyni zamanda tarix boyu bu istiqamətdə apardıqları siyasəti səciyyələndirən məqsəd və mahiyyətini daha geniş şəkildə anlamağa imkan yaradacaqdır.

Aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla tədqiq olunan mövzunun elmi yeniliyi aşağıdakılardan ibarətdir:

1. Vaxtilə geosiyasi rəqabətlərin nəticəsi kimi ərsəyə gətirilən "erməni məsələsi"nin beynəlxalq siyasətdəki yerini müəyyənləşdirilmişdir;

2. Böyük dövlətlərin ayrı-ayrılıqda hər birinin ermənilər və Ermənistanla qarşı-lıqlı faydalanma və istifadə münasibətləri çərçivəsində formalaşan əməkdaşlıq-ları faktiki materiallar əsasında açılıb ortaya qoyulmuşdur;

3. Elmi-tədqiqat işnin yazılması prosesində istifadə olunan mənbələrin müəyyən hissəsi ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmişdir;

4. Problemin tarixi genezisinin və geosiyasi köklərinin işıqlandırılması üçün Böyük Britaniyanın Milli Arxivlərində yer alan sənədlərdən istifadə olunmuşdur. Həqiqətən də İngiltərə arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çı-xarılması və araşdırılan problemin daha obyektiv kriterilər içərisində dəyərlən-dirilməsi baxımından olduqca vacibdir.

5. Problem ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir;

6. Tədqiqat işi ideoloji konsepsiyalardan azad, qərəzsiz, mövcud gerçəkliyə ol-duğu kimi yanaşma prinsipi əsasında hazırlanmışdır.

| № | Nəşr haqqında məlumat (Məqalələr) | Tam mətn |
|---|---|---|
| 1 | **Məqalənin adı:** Britain's "Armenian policy" in the South Caucasus (1917-1920)<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** IRS-Heritage, 2016, 3(26), p.52-57<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 2 | **Məqalənin adı:** Lost historical lands of Azerbaijan<br>**Müəlliflərin S.A.A:** Hajiyev I.<br>**Nəşrin adı:** IRS-Heritage, 2016, 1(24), p.48-56<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 3 | **Məqalənin adı:** Britain's "Armenian policy" in the South Caucasus (1917-1920). Continued.<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** IRS-Heritage, 2016, 4(27), p.34-41<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 4 | **Məqalənin adı:** Ermenilerin Naxçıvan iddiaları ve XX. Yüzyıl başlarında yapılan katliamlarda bütük güclerin rolü<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** Ermeni Araştırmaları, Dört aylık tarih, politika ve uluslararası ilişkiler dergisi, 2016, 53, s.175-192<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 5 | **Məqalənin adı:** Naxçıvan Azərbaycan Atabəylər dövlətinin mərkəzlərindən biri kimi<br>**Müəlliflərin S.A.A:** Hacıyev İ.<br>**Nəşrin adı:** AMEA Naxçıvan bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2016, №3, s.6-16<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |

| | | |
|---|---|---|
| 6 | **Məqalənin adı:** Böyük Britaniyanın arxiv materialları əsasında İngiltərənin “Erməni” siyasəti və Naxçıvana təsiri (1917-1920-ci illər)<br>**Müəlliflərin S.A.A:** Şıxəliyev E.<br>**Nəşrin adı:** Naxçıvan Dövlət Universiteti, elmi əsərlər, 2016, № 5(79), s.28-36<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |
| 7 | **Məqalənin adı:** Çarlık Rusyası tarafından ermenilerin Azerbaycan topraklarına göçürülmesi ve akabinde oluşturulan ermeni vilayeti (1828) (Rus ve Ermeni kaynakları ışığında)<br>**Müəlliflərin S.A.A:** Şıxəliyev E.<br>**Nəşrin adı:** Avrasya strateji, cild 4, sayı 1, 2015, s.7-24<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |
| 8 | **Məqalənin adı:** Britain’s ”Armenian policy” in the South Caucasus and place of the problem in UK archives (1917-1920)<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** IRS-Heritage, 2017, 1(29), p.26-33<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |
| 9 | **Məqalənin adı:** Britain’s ”Armenian policy” in the South Caucasus and place of the problem in UK archives (1917-1920)<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** IRS-Heritage, 2017, 1(30), p.58-63<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |
| 10 | **Məqalənin adı:** Britain’s ”Armenian policy” in the South Caucasus and place of the problem in UK archives (1917-1920)<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** IRS-Heritage, 2017, 1(31), p.36-41<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |
| 11 | **Məqalənin adı:** Britain’s ”Armenian policy” in the South Caucasus and place of the problem in British archives (1917-1920)<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** IRS-Heritage, 2017, 4(32), p.30-35<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |

| | | |
|---|---|---|
| 12 | **Məqalənin adı:** Ermenilerin Nahçivan iddialari ve XX. yüzyil başlarinda yapilan katliamlarda büyük güçlerin rolü* (armenians' Nakhchivan claims and the role of great powers in massacre by armenians in the beginning of XX century)<br>**Müəlliflərin S.A.A:** Shikhaliyev E.<br>**Nəşrin adı:** Ermeni Araştırmaları 2016, Sayı 53, s. 89-106<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 13 | **Məqalənin adı:** ÇARLIK RUSYASI TARAFINDAN ERMENİLERİN AZERBAYCAN TOPRAKLARINA GÖÇÜRÜLMESİ VE AKABİNDE OLUŞTURULAN ERMENİ VİLAYETİ (1828) (Rus ve Ermeni Kaynakları Işığında)<br>**Müəlliflərin S.A.A:** Şıxəliyev E.<br>**Nəşrin adı:** Çankırı Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji Dergisi, 2015, 4(1), s.7-24<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 14 | **Məqalənin adı:** Azərbaycan Ermənistan münaqişəsi və münaqişənin nizama salınmasında böyük dövlətlərin mövqeyi<br>**Müəlliflərin S.A.A:** M.Şabanov<br>**Nəşrin adı:** AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2016, №3, s. 83-97<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| | **Nəşr haqqında məlumat (Kitablar)** | |
| 1 | **Kitabın adı:** Ermənilərin Azərbaycana qarşı qanlı cinayətləri və ərazi iddiaları<br>**Müəlliflərin S.A.A:** Hacıyev İ.<br>**Nəşrin adı:** M.: АП "Столица", 2016, s.182 | PDF Adobe |
| 2 | **Kitabın adı:** Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri<br>**Müəlliflərin S.A.A:** Hacıyev İ., Şıxəliyev E., Cəfərli E., Şabanov M.<br>**Nəşrin adı:** Bakı: 2017-ci il, 300 s. | PDF Adobe |
| 3 | **Kitabın adı:** Rusiya və Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri)<br>**Müəlliflərin S.A.A:** Cəfərli E.<br>**Nəşrin adı:** Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2017, s.224 | PDF Adobe |
| 4 | **Kitabın adı:** İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920)<br>**Müəlliflərin S.A.A:** Şıxəliyev E.<br>**Nəşrin adı:** Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2016, s.144 | PDF Adobe |